**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KƏND TƏSƏRRÜFATINDA TƏŞKİLATİ – İQTİSADİ İDARƏETMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Sevinc Fizuli qızı Kərimova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2021**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Rəqəmsal texnologiyalar və tətbiqi informatika" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor,
**Rəsul Ənvər oğlu Balayev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Yasəmən Əli qızı Əliyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Qalib Bəhram oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir

Dissertasiya
şurasının sədri: iqtisad elmləri doktoru, professor
______________ **Ədalət Cəlal oğlu Muradov**
imza

Dissertasiya şurasının
elmi katibi: iqtisad emləri üzrə fəlsəfə doktoru, dosent
______________ **Zöhrab Həsən oğlu İbrahimov**
imza

Elmi seminarın
sədri: iqtisad elmləri doktoru, dosent
______________ **Ramil Zahid oğlu Hüseyn**
imza

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** İdarəetmənin nəzəri əsasları əsrlər ərzində formalaşmış və sənaye inqilabına qədər, məhz kənd təsərrüfatı idarə olunan obyekt kimi diqqət mərkəzində olmuşdur. Aqrar sahədə baş verən iqtisadi, hüquqi və digər proseslərin idarə edilməsi sisteminin səmərəliliyi iqtisadi və institusional potensialdan istifadənin optimal mexanizminin yaradılmasını nəzərdə tutur. Bir sözlə, bəşəriyyətin mövcudluğu üçün həlledici rol oynayan kənd təsərrüfatı fəaliyyətinin nəticələri onun idarə edilməsinin səmərəliliyindən bilavasitə asılıdır. Kənd təsərrüfatı istehsalının idarə edilməsi sistemi, hazırda sərəncamda olan maddi, əmək və maliyyə ehtiyatlarının istifadəsinin optimallaşdırılması yolu ilə əməyin səmərəli təşkilinə xidmət edən zəruri müdaxilələr sistemidir. Digər tərəfdən kənd təsərrüfatının təşkilatı-iqtisadi sistemi istehsal-kommersiya fəaliyyətinin baş verdiyi təşkilati-iqtisadi strukturun funksionallığını təmin edir. Belə ki, təşkilati struktur kənd təsərrüfatı müəssisələrində daxili əmək bölgüsünü əks etdirməklə, istehsal vahidlərinin, bölmələrinin və yardımçı sahələrin qarşılıqlı əlaqəsinə əsaslanır.

Kənd təsərrüfatında idarəetmə sistemi, idarəetmənin təşkilati strukturu ilə yanaşı idarəetmə münasibətləri, mikro və makrosəviyyəli iqtisadi proseslərin nizamlanmasını nəzərdə tutur. Bazar münasibətlərinin inkişafının müasir mərhələsi üçün kənd təsərrüfatında mütərəqqi idarəetmə sisteminin formalaşmasında innovativ yanaşmaların rolunun artması xarakterikdir. İdarəetmənin ümumi prinsiplərinin və idarə olunan obyektin özünəməxsus cəhətlərinin üzvi vəhdəti, kənd təsərrüfatı müəssisələrinin səmərəli fəaliyyətinin həlledici şərtidir. Odur ki, kənd təsərrüfatının idarə edilməsinin nəzəri və praktiki məsələləri alim və mütəxəssislərin diqqət mərkəzindədir. O cümlədən, aqrar sahədə təşkilatı-iqtisadi idarəetmə sistemlərinin təşəkkülü prosesləri izlənməli, kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin informasiya və təşkilati təminatı səciyyələndirilməli, təkmilləşdirmə imkanları qiymətləndirilməli, nəticə etibarı ilə sahədə innovasiyalı inkişaf tələblərinə uyğun səmərəli idarəetmə sisteminin

qurulması məsələləri öz həllini tapmalıdır.

Kənd təsərrüfatının idarə edilməsi tarixi nə qədər qədim olsa da, müvafiq təcrübənin regionlar, ölkələr və ölkədaxili regionlar üzrə tətbiqindəki özünəməxsusluqlar, innovasiyalara açıqlıq dərəcəsindəki fərqlər və bu kimi bir sıra digər amillər hərtərəfli araşdırmaların predmeti olaraq qalır. Digər tərəfdən, kənd təsərrüfatının səmərəliliyinin yüksəldilməsi məqsədilə qlobal iqlim dəyişikliklərinin, ekoloji təsərrüfatçılığın tələblərini nəzərə alan, habelə klasterial təşəbbüslərin dəstəklənməsi,ərzaq təhlükəsizliyinin xəritələşdirilməsi və bu kimi bir sıra digər vəzifələrin icrasını təmin edən idarəetmə sisteminin formalaşdırılması obyektiv zərurətə çevrilmişdir.

Azərbaycanda kənd təsərrüfatının idarə edilməsi sisteminin bazar tələblərinə uyğunlaşdırılması və sahənin institusional təminatının yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir. Bununla belə, milli iqtisadiyyatın digər sahələrində olduğu kimi kənd təsərrüfatında da idarəetmə sisteminin dayanıqlı və innovasiyalı - intensiv inkişafa adekvatlığının əldə olunması baxımından görüləcək işlərin miqyası genişləndirilməli, həmin işlərin elmi təminatı gücləndirilməlidir.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin Tədbirlər Planının "7.8. Strateji hədəf 8. Aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsi və biznes mühitinin təkmilləşdirilməsi" bəndini əsas tutaraq, deyə bilərik ki, kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi mövzusunda tədqiqat işi xüsusi aktuallıq kəsb edir.

**Problemin öyrənilmə vəziyyəti.** Kənd təsərrüfatında təşkilati-iqtisadi idarə-etmə sisteminin formalaşması və inkişafı problemlərinə dair Azərbaycanın iqtisadçı alimləri mühüm elmi-təcrübi əhəmiyyətə malik tədqiqatlar aparmış və ciddi nəti-cələr əldə etmişlər. Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə mühitinin yaxşı-laşdırılması, sahənin idarə edilməsi sisteminin səmərəliliyinin yüksəldilməsi nəzəri-metodoloji və təcrübi problemləri **Nadirov A.A.,** Səmədzadə Z.Ə., Məmmədov Q.S., Nuriyev Ə.X., Alıyev İ.H, Ataşov B.X., Babayev A.H., Balayev R.Ə., **Əhmədov İ.V.,** Əliyeva

Y.Ə., Hacıyev Q.B., Hüseynov M.C., Xəliliov H.A., İbrahimov İ.H., İsgəndərov R.K., İsrafilov H.A., **Qasımov Ə.C.,** Qasımov N.Ə., Quliyev E.A., Quliyev T.Ə., Sadıqov M.M., Salahov S.V., Səmədov A.H., Tağıyev N.F., Qafarov Ş.S., Cavadov N.Ə., Əhmədov B.S., Hüseyn R.Z., Novruzov V.T., Əhmədov F.S., Hüseynova X.M. və bir sıra digər Azərbaycan alimləri, həmçinin Bulent Tokat, Aaker D., Arxipova N.İ., Berdces D., Burkov V.N., Qribov V.D., Daft L.P., Kulov A.P., Maykl Teysi, Oqnivtsev B.S., Popov N.A., Poptsov A.Q., Serova E.V., Teterin Y.N., Frederik Teylor, Biqman D., Hill C., Tompson A. və s.xarici ölkələrin digər alimləri tərəfindən tədqiq olunmuşdur.

Azərbaycanın kənd təsərüfatında təşkilati-iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi problemlərinə dair ölkə alimləri tərəfindən həyata keçirilmiş tədqiqatların nəticələri elmi-praktiki baxımdan diqqətəlayiqdir. Eyni zamanda, yuxarıda adlarını sadaladığımız tədqiqatçılar kənd təsərüfatında təşkilati-iqtisadi idarəetmə sisteminin inkişafı məsələlərinin kompleks tədqiqini öz qarşılarına məqsəd kimi qoymamışlar. Bu və digər səbəblərdən kənd təsərrüfatında idarəetmənin təşkilati və iqtisadi aspektlərinin birgə araşdırılması və sahədə mükəmməl idarəetmə sisteminin yaradılması məsələləri öz həllini gözləyir.

**Tədqiqatın məqsədi -** kənd təsərrüfatının idarə edilməsi sisteminin təkmilləşdirilməsinin təşkilati - iqtisadi problemlərinin həlli imkanlarını qiymətləndirməklə, müvafiq idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması və onun səmərəliliyinin yüksəldilməsidir.

Qarşıya qoyulmuş məqsədə müvafiq olaraq tədqiqatın aşağıdakı **əsas vəzifələri** müəyyənləşdirilmişdir:

- aqrar sahədə təşkilatı-iqtisadi idarəetmə sistemlərinin formalaşmasının konseptual əsaslarının tədqiqi;
- kənd təsərrüfatının idarə edilməsinin nəzəri-metodoloji müddəalarının əsaslandırılması və mütərəqqi təcrübənin qiymətləndirilməsi;
- Azərbaycanın kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə sisteminin informasiya bazasının dəqiq xarakteristikasının verilməsi;
- kənd təsərrüfatında idarəetmənin təşkilati strukturunun formalaşması prosesinin təhlili;

- aqrar sahədə idarəetmənin iqtisadi üsul və vasitələrinin tətbiqi xüsusiyyətlərinin müəyyən edilməsi;

- kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin informasiya təminatının təkmilləşdirilməsi imkanlarının qiymətləndirilməsi;

- idarəetmə strukturunun kənd təsərrüfatında innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması prioritetlərinin əsaslandırılması;

- kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi üzrə təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti** – ölkənin kənd təsərrüfatında fəaliyyət göstərən istehsal və xidmət subyektləri şəbəkəsi seçilmişdir.

**Tədqiqatın predmetini** kənd təsərrüfatında əlverişli inkişaf mühitini və təşkilati-iqtisadi idarəetmə sisteminin səmərəliliyini şərtləndirən amillər, meyillər və qanunauyğunluqlar təşkil edır.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** iqtisadi sistemlərin o cümlədən kənd təsərrüfatında istehsalın təşkili və idarə edilməsinə həsr olunmuş ölkə və xarici alimlərin nəzəri və praktiki elmi tədqiqatları, qanunvericilik və normativ hüquqi aktlar təşkil edir. Tədqiqatda sistemli yanaşmanın analiz və sintez metodundan, iqtisadi modelləşdirmə sistemli təhlil, statistik-iqtisadi, məqsədli- proqram və s. metodlardan istifadə edilmişdir.

Tədqiqatın informasiya bazası olaraq Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, hökumətin qərarları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarından, elmi-tədqiqat institutlarının normativ arayış və texnoloji sənədlərindən, internet resurslardan sorğu materiallarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Kənd təsərrüfatında inkişafın mühüm amili kimi təşkilati - iqtisadi idarəetmə sisteminin kompleks tədqiq olunduğu dissertasiya işində əldə olunmuş nəticələrdə elmi yeniliklər aşağıdakılardır:

- kənd təsərrüfatının idarə edilməsinin bəzi nəzəri - metodoloji müddəaları əsaslandırılmış və mütərəqqi təcrübənin tətbiqi imkanları qiymətləndirilmişdir;

- sahədə innovasiyalı fəaliyyətin idarə edilməsi qərarlarının hazırlanması üçün iqtisadi-riyazi model tərtib edilmişdir. Model üzrə

aparılmış hesablamalar nəticəsində Azərbaycanda yaradılmış bəzi buğda sortlarının istehsal perspektivləri müəyyən olunmuşdur;

- kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin mükəmməl informasiya təminatının yaradılması yolları göstərilmişdir;
- sahədə təşkilati-iqtisadi idarəetmə sisteminin innovasiyalı struktur elementləri xarakterizə olunmuş və rəqəmsal mühitin üstünlüklərinin reallaşdırılması imkanları qiymətləndirilmişdir;
- imitasiya modelləşdirilməsi ilə ölkənin iqtisadi rayonlarının iri təsərrüfatlarında tərəvəz istehsalı üzrə 2025-ci ilə proqnozlar hazırlanmış, ümumi istehsalda Abşeron, Quba-Xaçmaz, Gəncə-Qazax və Lənkəran iqtisadi rayonlarının tərəvəz istehsalında payı üzrə üstünlük verilən variant müəyyən edilmişdir;
- kənd təsərrüfatında idarəetmənin təşkilati iqtisadi aspektdə səmərəliliyinin yüksəldilməsi üzrə təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində əsaslandırılan nəzəri-metodiki müddəalar, təklif və tövsiyələr kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə sisteminin təkmilləşdirilməsi üzrə təklifləri tətbiq etməklə milli ərzaq təhlükəsizliyinin təmin edilməsini və ölkənin kənd təsərrüfatı qarşısında duran digər vəzifələrin icrasını yerinə yetirilməsini sürətləndirməyə imkan verir.

Əsaslandırılmış yanaşmalar kənd təsərrüfatında idarəetmənin təşkilati-iqtisadi sisteminin səmərəliliyini yüksəltməklə sahənin inkişafının tempini yüksəltməyə və miqyasını genişləndirməyə yönəlmişdir. Təklif və tövsiyələr mükəmməl təşkilati-iqtisadi idarəetmə sisteminin formalaşdırılması şəraitində kənd təsərrüfatı istehsalının səmərəliliyini yüksəltmək üçün istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas müddəa, nəticə və təklifləri 2012-2020-ci illərdə keçirilmiş beynəlxalq səviyyəli konfranslarda müzakirə edilmişdir.

Tədqiqatın əsas müddəaları və nəticələri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzinin Quba Regional Aqrar Elm Mərkəzi (hazırda Aqrar Elm və İnnovasiya Mərkəzinin Quba regional Aqrar Elm və İnnovasiya Mərkəzi) tərəfindən istifadə üçün qəbul olunmuşdur (21 avqust 2015-ci il tarixli 64/15 saylı arayış).

Tədqiqat dövründə dissertasiya işinin mövzusu Azərbaycan Dövlət

İqtisad Universitetində aparılan elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuş, aktual problem kimi elmi seminarlarda məruzə edilmişdir. O cümlədən "Aqrar iqtisadiyyatın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransda (17.02.2012) və elmi seminarlarda tədqiqatın əsas müddəa və nəticələri məruzə edilmişdir.

Dissertasiya mövzusu üzrə müəllifin ümumi həcmi 4,5 çap vərəqi olan 11 elmi əsəri, o cümlədən 8 məqaləsi (onlardan 2-i xaricdə) və 3 tezisi çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya giriş (10288 işarə), 3 fəsil (I fəsil – 70455 işarə, II fəsil – 81693 işarə, III fəsil – 72162 işarə), nəticə (14486 işarə), istifadə edilmiş 147 adda ədəbiyyat siyahisindan ibarət olmaqla, ümumi həcmi (249.084 işarə) 146 səhifədir. İşdə 9 cədvəl və 11 şəkil vardır.

## Dissertasiya işinin mündəricatı

Giriş

I Fəsil. Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmə sisteminin nəzəri və metodoloji xüsusiyyətləri

1.1. Təşkilatı-iqtisadi idarəetmə sistemlərinin mahiyyəti və aqrar sahədə onun təşəkkülü

1.2. Aqrar sahədə idarəetmənin nəzəri-metodoloji məsələləri

1.3. Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə üzrə xarici təcrübə

II Fəsil. Kənd təsərrüfatında mövcud təşkilati – iqtisadi idarəetmə sisteminin səmərəliliyinin təhlili

2.1. Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin mövcud informasiya bazasının xarakteristikası

2.2. Aqrar sahədə idarəetmənin təşkilati strukturu və onun formalaşması prosesinin xarakteristikası

2.3. Sahənin idarə edilməsinin iqtisadi üsul və vasitələrinin tətbiqi xüsusiyyətləri

2.4. Aqrar sahədə innovasiyalı fəaliyyətin idarə edilməsi qərarlarının hazırlanması prosesində iqtisadi-riyazi üsullardan istifadə

III Fəsil. Sahədə təşkilati-iqtisadi idarəetmə sisteminin səmərəliliyinin yüksəldilməsi və informasiya təminatının

təkmilləşdirilməsi
3.1. Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmənin informasiya təminatının təkmilləşdirilməsi
3.2. Kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması
3.3. Aqrar sahədə təşkilati - iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri
Nəticə
İstifadə olunmuş ədəbiyyat
Əlavələr

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, nəzəri-metodoloji əsasları, məlumat mənbələri, elmi yeniliyi, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması əks olunmuşdur.

Dissertasiyanın "**Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmə sisteminin nəzəri və metodoloji xüsusiyyətləri" adlı birinci fəslində** təşkilatı-iqtisadi idarəetmə sistemlərinin mahiyyəti və aqrar sahədə onun təşəkkülü məsələləri araşdırılmış, kənd təsərrüfatının idarə edilməsinin nəzəri-metodoloji aspektləri tədqiq olunmuş, sahədə təşkilati-iqtisadi idarəetmə üzrə xarici təcrübə qiymətləndirilmişdir.

Aqrar sahədə, o cümlədən kənd təsərrüfatı istehsalında idarəetmənin məqsədi əhalini keyfiyyətli və ekoloji təhlükəsiz, əlyetən (münasib qiymətli) ərzaq məhsulları və ölkə sənayesini kənd təsərrüfatı mənşəli xammalla təchiz etmək, çoxfunksiyalılığı təmin edən mühitin əsas komponentlərinin təsirini reqlamentləşdirmək, təkrar istehsalın təmin edilməsi üçün resurslardan qənaətli və səmərəli istifadə etməkdir. Kənd təsərrüfatında resurslar aqrobioloji potensialın komponentlərindən tutmuş, gen mühəndisliyinin əldə etdiyi nəticələrə qədər, olduqca geniş spektri əhatə edir.

Kənd təsərrüfatında və onunla birbaşa əlaqədar olan sahələrdə sahibkarlığın təşviq olunması, özəl bölmə-dövlət tərəfdaşlığının dəstəklənməsi müasir aqrar iqtisadiyyatın inkişafının prioritet istiqamətlərindəndir. Sahibkarlıq subyektinin, o cümlədən, aqrar

sahədə idarə edilməsinin təşkilati-iqtisadi sistemində, ilk növbədə inkişafın məqsədlərinin əsaslandırılması, prioritet istiqamətlərin müəyyənləşdirilməsi, rəqabət üstünlüyü verən resurs bölgüsünün təminatı, başqa sözlə, müəyyən qeyd-şərtlərlə allokasiya effektinin əldə edilməsi məsələləri əhatə olunur. Bu zaman xarici mühitin təsirlərini detallaşdırılmış şəkildə nəzərə almaq zəruridir.

İdarəetmə sisteminin mühüm komponenti olaraq strateji təhlil, imkanların və səlahiyyətlərin səmərəli reallaşdırılması istiqamətlərini müəyyən etməyə xidmət edir. Sahibkarlığın inkişafının yaxın və uzaq perspektivə olan məqsəd və vəzifələrini müəyyənləşdirməklə, mövcud və potensial imkanlarını qiymətləndirməklə strateji inkişaf istiqamətləri əsaslandırılır. Adətən, həmin istiqamətlər sırasında bazarın konkret seqmentində möhkəmlənmə, istehsal xərclərinin münimumlaşdırılması, səmərəli ixtisaslaşma və s. önə çəkilir.

Aqrar-ərzaq bazarında mövqe qazanmağın və o cümlədən, konkret olaraq əlverişli konyunktur dövrünün müəyyənləşdirilməsi də təşkilati-iqtisadi idarəetmə sisteminin funksiyası sayılmalıdır. Sahədə sahibkarlıq subyektləri üçün cari idarəetmə təşkilati-iqtisadi idarəetmə sisteminin mühüm vəzifəsi olmaqla həm daxili potensialın, həm də müxtəlif xarakterli ekzogen təsirlərin xarakteristikalarını nəzərə almalıdır.

Kənd təsərrüfatı istehsalçılarının rəqabət qabiliyyətinin təşkilati-iqtisadi idarə edilməsi tədbirləri sahədaxili xüsusiyyətlər nəzərə alınmaqla əsaslandırılmalıdır. O cümlədən, eyni profilli qurumların konkret ərazidə təmərküzləşməsinin nəticələri səciyyələndirilməli, sahədaxili rəqabətin səviyyəsinin fəaliyyət miqyasına təsiri, istehsal məsrəflərinin aşağı salınmasına yönəlik miqyas, texnoloji və struktur amilləri qiymətləndirilməlidir.

Müasir idarəetmə nəzəriyyəsi müxtəlif mövqe və yanaşmaların eklektik birliyi olmayıb, onların, təcrübədə illərlə sınanan qarşılıqlı sübut və dəqiqləşdirmələrini meydana qoyan müzakirələrin məhsuludur. İqtisadi və sosial sistemlərin təşəkkülü müəssisədaxili idarəetmənin müstəqil fəaliyyət sahəsinə çevrilməsi ilə nəticələnmiş, öz növbəsində isə bu təşkilati strukturun idarəetmədəki rolunun artmasına gətirib çıxarmışdır.

Kənd təsərrüfatı müəssisələrinin fəaliyyət xüsusiyyətləri, istehsal,

təşkilati və idarəetmə strukturu sahədə idarəetmənin xarakterinə və səmərəliliyinə təsirsiz qalmır. Kənd təsərrüfatı istehsalının özünəməxsus cəhətləri – mövsümilik, təbiət qüvvələrindən birbaşa asılılıq, məhsulun biokimyəvi tərkibinin kənar təsirlərə, xüsusilə temperatura yüksək həssaslığı, uzaq məsafəyə daşınmasının yüksək məsrəfliliyi sahənin strukturunda öz əksini tapır. Transaksion məsrəflərin minimumlaşdırılması baxımından təşkilati struktur idarəetmə strukturunu müəyyən edən əsas amil olmalıdır.

İqtisadi münasibətlərin əsasını obyektiv tələbat və insan mənafeləri təşkil edir. İdarəetmənin iqtisadi metodları inkişafın daxili stimulunu, motivasiyanı dəstəkləməklə, iqtisadi proqram və layihələrin indikatorları və onlara nail olmağın vasitələrinin müəyyənləşdirilməsində aparıcı rol oynayır. İntellektual idarəetməyə keçid innovasiya fəallığının dəstəklənməsinin mühüm şərtidir. Kənd təsərrüfatının təşkilati-iqtisadi idarə edilməsində mütərəqqi təcrübənin təhlili aşağıdakıları xülasə etməyə imkan verir: - milli iqtisadi və ərzaq təhlükəsizliyinin təminatı tələbləri ayrı-ayrı ölkə və regionlarda kifayət qədər geniş istifadə olunan idaretmə modellərinin, uzlaşan maraqlar (idarə edən subyekt və idarə olunan obyekt,konkret fəaliyyət növündə tərəf-müqabillər, mülkiyyətçi-menecer və icraçı və i.a. arasında) müstəvisində formalaşmasını şərtləndirir; əmək kollektivlərində çalışan insanların işgüzar qarşılıqlı münasibətlərinin başlıca rol oynadığı idarəetmə sistemlərinin tətbiqi imkanları konkret zaman və məkan kəsiyində qiymətləndirilməlidir; kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə üzrə inkişaf etmiş ölkələrin təcrübəsinin araşdırılması göstərir ki, idarəetmə modellərinin xarakteri, həlledici dərəcədə, məxsus olduğu ölkənin sosial-iqtisadi sisteminin təşəkkülünün tarixi mühiti ilə əlaqədardır; kənd təsərrüfatının inkişaf prioritetlərinə adekvat idarəetmə modellərinə üstünlük verilməsi praktiki baxımdan məqbul sayılır.

**“Kənd təsərrüfatında mövcud təşkilati - iqtisadi idarəetmə sisteminin səmərəliliyinin təhlili” adlı ikinci fəsildə** kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin mövcud informasiya bazası xarakterizə olunmuş, sahədə idarəetmənin təşkilati strukturu, onun formalaşması prosesi və səmərəliliyi təhlil edilmiş, kənd təsərrüfatının idarə edilməsinin iqtisadi üsul və vasitələrinin tətbiqi

xüsusiyyətləri aşkar edilmişdir. Milli aqrar sahəyə dövlət himayəsi mexanizminin informasiya təminatı bazar təhriflərinin minimuma endirilməsi tələbləri nəzərə alınmaqla təkmilləşdirilir. Sahəyə dövlət himayəsinin bazarda rəqabətə təhlükə yaratmaması üçün tədbirlər görülməlidir. Kənd təsərrüfatında və aqrar bazarda informasiya formalaşma mərhələsindədir (şək. 1).




**Şəkil 1. Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin informasiya əlaqələri**

*Mənbə:müəllif tərəfindən tərtib olunmuşdur*

Kənd təsərrüfatında informasiya axınlarının optimal idarə edilməsi imkanlarının reallaşdırılması, müvafiq infrastrukturun əsas keyfiyyət və kəmiyyət parametrləri üzrə mükəmməlliyindən asılıdır.

Ölkənin kənd təsərrüfatı müəssisələrinin iqtisadi xarakteristikaları sırasında idarəetmə mühitinə daha çox təsir edən göstəricilərə, ilk növbədə kənd təsərrüfatı təyinatlı əsas fondların dəyəri, bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi, təsərrüfatda çalışan işçilərin sayı aid edilə bilər. Haqqında bəhs edilən müəssisələrin gəlirləri-

nin idarə edilməsi sisteminin informasiya bazasının mütərəqqi informasiya texnologiyalarının tələblərinə uyğunlaşdırılmasına, aqrar sahənin ixrac potensialının gücləndirilməsi xəttinə uyğun olaraq uçot işlərinin beynəlxalq sistemin prinsiplərinə uyğunlaşdırılması prosesinin sürətləndirilməsinə ehtiyac vardır.

Müxtəlif təsərrüfatçılıq formalarında, o cümlədən fərdi sahibkar təsərrüfatlarında və kənd təsərrüfatı müəssisələrində bitkiçilik məhsullarının bir sentnerinin maya dəyərinin dinamika təhlilinin nəticələri bu baxımdan mühüm informativliyə malikdir (cədvəl 1).

**Cədvəl 1**

**Müxtəlif təsərrüfatçılıq formalarında bitkiçilik məhsullarının bir sentnerinin maya dəyəri, manat[1]**

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Dənli bitkilər* | 6,5/8,1 | 17,5/14,9 | 12,9/16,4 | 12,4/17,7 | 12,8/16,2 | 15,5/15,3 |
| Xam pambıq | 13,3/21,6 | 23,5/36,5 | 39,0/37,0 | 34,8/51,1 | 43,5/45,2 | 31,5/52,8 |
| Şəkər çuğunduru | -/3,0 | 1,6/3,5 | 2,1/1,7 | 4,4/4,5 | -/3,2 | 4/2,9 |
| Tütün | 21,4/ 31,7 | 44,9/37,3 | 84,5/60,0 | 70,0/69,9 | 62,4/73,8 | 66,6/56 |
| Yaşıl çay yarpağı | -/25,6 | 128,1/75,3 | 100,0/69,3 | -/91,4 | -/61,1 | 129,9/185,1 |
| Kartof | 9,0/11,1 | 15,1/30,3 | 27,4/21,6 | 35,8/17,2 | 31,1/21,4 | 65,2/24,8 |
| Tərəvəz (açıq sahədə) | 3,5/4,7 | 9,7/15,3 | 15,3/12,8 | 16,9/8,5 | 15,8/9,2 | 18,7/13 |
| Bostan məhsulları | 2,8/5,8 | 9,3/7,9 | 8,1/7,9 | 7,4/22,7 | 10,4/8,8 | 13,4/9,1 |
| Meyvə və giləmeyvə | 11,4/6,8 | 15,6/23,4 | 26,6/41,6 | 29,4/25,8 | 14,7/40,3 | 17,5/41,2 |
| Üzüm | 12,7/10,5 | 22,2/21,1 | 41,2/33,1 | 28,5/27,1 | 33,3/31,6 | 41,2/41,1 |

**Surətdə fərdi sahibkar təsərrüfatlarında, məxrəcdə isə kənd təsərrüfatı müəssisələrində istehsal olunan məhsulların maya dəyəri göstərilmişdir.*

Xam pambığın bir sentnerinin fərdi sahibkar təsərrüfatlarında və kənd təsərrüfatı müəssisələrindəki maya dəyərinin müqayisəsi fərdi sahibkar təsərrüfatlarında vəziyyətin daha yaxşı olduğunu söyləməyə imkan verirsə, deyək ki, dənli bitkilər üzrə bu müqayisə birmənalı qəbul edilən meyil aşkar etməyə şərait yaratmır və i.a.

---

[1] *Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Bakı, 2020, s. 24,27*

Heyvandarlıqda məsrəflərin idarə edilməsinin informasiya bazasının formalaşmasında yemlə təminat göstəriciləri aparıcı xüsusi çəkiyə malikdir. Bununla belə, statistik məcmuələrdə həmin informasiyalar zəruri detallaşdırmaya malik deyildir. Odur ki, heyvandarlıq məhsullarına məsrəflərin idarə olunmasının informasiya bazasının formalaşdırılmasında ciddi çətinliklər yaranır. Heyvandarlıqla məşğul olan fərdi sahibkara və onun ailə üzvünə əmək haqqı hesablanmadığından, heyvandarlıq məhsulunun maya dəyərinin dinamika təhlili yalnız bu təsərrüfat kateqoriyaları dairəsində aparıla bilər. Fərdi sahibkar təsərrüfatlarında heyvandarlıq məhsullarının maya dəyərinin 2005-2019-ci illər ərzində dəfələrlə, deyək ki, süd üzrə 2,4 dəfə, iri buynuzlu mal-qaranın çəki artımı üzrə 2,7 dəfə, yun üzrə 4,5 dəfə artması faktinin izahı cəhdləri, həmin təsərrüfatlarda məsrəflərin idarə edilməsinin informasiya bazasında çoxtəyinatlı istifadə imkanlarının məhdud olduğunu söyləməyə imkan verir (cədvəl 2).

**Cədvəl 2**

**Müxtəlif təsərrüfatçılıq formalarında heyvandarlıq məhsullarının bir sentnerinin maya dəyəri, manat[2]**

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Süd* | 11,9/18,0 | 25,3/28,0 | 29,3/33,2 | 29,4/48,7 | 31,0/48,8 | 29,4/45,9 |
| Yun | 32,3/49,6 | 117,1/94,8 | 119,7/119,5 | 129,6/109,3 | 123,2/111,9 | 144,1/98,5 |
| Yumurta, min ədəd | 37,9/41,9 | 65,4/51,7 | 78,8/76,4 | 83,3/110,1 | 75,3/156,1 | 111,7/131,7 |
| İri buynuzlu mal-qaranın çəki artımı | 99,4/112,8 | 186,5/213,8 | 223,7/283,7 | 237,7/327,4 | 211,0/347,6 | 270,2/353,5 |
| Qoyun və keçilərin çəki artımı | 67,5/98,2 | 186,7/186,4 | 226,2/245,6 | 266,3/273,7 | 256,2/299,4 | 351,8/331,8 |
| Donuzların çəki artımı | 90,3/110,2 | -/600,0 | -/2363,5 | -/3468,2 | -/1100,0 | -/295,2 |
| Quşların çəki artımı | 100,1/127,1 | 214,1/192,4 | 229,9/169,8 | 234,3/203,6 | 228,4/228,2 | 247/233,7 |

*Surətdə fərdi sahibkar təsərrüfatlarında, məxrəcdə isə kənd təsərrüfatı müəssisələrində istehsal olunan məhsulların maya dəyəri göstərilmişdir.

[2] *Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Bakı, 2020, s. 24,27*

İstehsalı göstərilən dövlət dəstəyi səviyyəsinə görə fərqlənən kənd təsər-rüfatı məhsullarının maya dəyərinin dinamikasında da ciddi fərq müşahidə olunmamışdır. Bununla belə, şübhəsiz ki, həm fərdi sahibkar təsərrüfatlarında, həm də kənd təsərrüfatı müəssisələrində istehsal olunan dənli bitkilərin maya dəyərinin maya dəyərinin artması meylinin səbəblərini aydınlaşdırmaq üçün daha detallaşdırılmış informasiya massivləri formalaşdırılmalıdır (şək. 2).




| | 2005 | 2010 | 2015 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| FSTDB | 100 | 270 | 200 | 196 | 237 |
| FSTS | 100 | 210 | 250 | 261 | 248 |
| KTMDB | 100 | 180 | 200 | 202 | 190 |
| KTMS | 100 | 160 | 180 | 272 | 256 |

*FST DB (Fərdi Sahibkar Təsərrüfatlarında Dənli Bitkilər) və FSTS (Fərdi Sahibkar Təsərrüfatlarında Süd) - fərdi sanibkar təsərrüfatlarında, müvafiq olaraq dənli bitkilər və süd KTMDB (Kənd Təsərrüfatı Müəssisələrində Dənli Bitkilər) və KTMS(Kənd Təsərrüfatı Müəssisələrində Süd)-kənd təsərrüfatı müəssisələrində, müvafiq olaraq dənli bitkilər və süd*

**Şəkil 2. Müxtəlif təsərrüfatçılıq formalarında dəstək səviyyəsinə görə fərqlənən kənd təsərrüfatı məhsullarının maya dəyərinin dinamikası[3]**

[3] *Mənbə: Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. Bakı, 2017, s. 21,27; Bakı, 2020, s. 22,27*

Resursların optimal nisbətdə istifadəsi ilə şərtlənən və ciddi iqtisadi səmərə verən allokasiya effekti, yalnız çoxvariantlı idarəetmə qərarlarının hazırlanması və onlar arasından ən səmərəli olanının seçilərək reallaşdırılması sayəsində əldə oluna bilər. Bununla belə, mövcud informasiya bazası çoxvariantlı idarəetmə qərarlarının hazırlanması və qəbuluna, heç də həmişə imkan vermir.

Torpaq resurslarının idarə olunmasında əsas məqsədlərdən biri faktiki və potensial kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin bərpası və artırılmasıdır. Bu idarəetmə prosesində istifadə olunan göstəricilərə birmənalı yanaşma, həm nəzəri, həm də təcrübi baxımdan əhəmiyyətlidir. Torpaq resurslarından istifadə mühitini şərtləndirən çoxsaylı və müxtəlif xarakterli amilləri kəmiyyətcə və keyfiyyətcə səciyyələndirən parametrlər vaciblik dərəcəsinə görə sıralanmalıdır. Bu baxımdan idarə olunan parametrlər qismində şoranlaşma və eroziyanın xarakteristikaları xüsusi diqqətə layiqdir.

Resurs bazarının müvafiq seqmentində kənd təsərrüfatı istehsalçılarının mənafeyi önə çəkilməklə tələb-təklif nisbətinin tənzimlənməsi məqsədilə aqrar və aqrar-sənaye xarakterli texnologi innovasiyaların transferinin dəstəklənməsi; amortizasiya siyasətinin innovasiyalı-intensiv inkişaf prioritetlərinə uyğunlaşdırılması; sahənin texniki modernləşdirilməsi məqsədilə idxal olunan maşın, qurğu və avadanlıqların gömrük rüsumlarının azaldılması və bəzi hallarda müvəqqəti olaraq aradan qaldırılması istiqamətində işlər davam etdirilir.

Azərbaycanın kənd təsərrüfatında subsidiyaların idarə edilməsinin mövcud sistemi təşəkkül mərhələsində olmaqla, qabaqcıl beynəlxalq modellərə tədricən uyğunlaşdırılır. Yaxın perspektivdə subsidiya almaq hüququ verən zəruri xarakteristikalara malik təsərrüfatçılıq subyektlərinin indikasiya sisteminin qurulması nəzərdə tutulur. Haqqında danışılan sistem kənd təsərrüfatına dövlət himayəsi tədbirlərinin həyata keçirilməsi prosesində məmur-istehsalçı arasındakı şəxsi təmasları demək olar ki, aradan qaldırmaq imkanına malikdir. İnnovasiyalı fəaliyyətin təşkili və idarə edilməsi üçün kadr təminatı yaxşılaşdırılmalı, o cümlədən açıq aqrar təhsil və informasiya-məsləhət xidməti inkişaf etdirilməlidir. İlkin hesablamalara görə kənd təsərrüfatında çalışan işçilərin onundan doqquzunun ixtisas hazırlığı

yoxdur. Digər tərəfdən informasiya-məsləhət xidməti göstərilən təsərrüfatlar, ümumi təsərrüfatların beşdə birini də təşkil etmir.

Kənd təsərrüfatında idarəetmənin təşkilati strukturunun müəssisənin inkişaf səviyyəsini nəzərə alması vəziyyətini qiymətləndirmək üçün aparılmış araşdırmalar aşağıdakıları xülasə etməyə imkan verir: müəssisənin inkişaf səviyyəsinin yüksəlməsi və onun idarə edilməsinin təşkilati strukturunda baş verən dəyişikliklər arasında korrelyasiya əlaqəsi zəifdir; müəssisənin fəaliyyət dairəsinin genişlənməsi, onun bazardakı payının artması və bazarda iştirak fəallığının yüksəlməsi ilə müşayiət olunduqda idarəetmənin təşkilati strukturunda dəyişiklik etmək zərurəti yaranır.

Kənd təsərrüfatının idarə edilməsinin təşkilati struktur bölmələrində qısamüddətli maraqların uzunmüddətli maraqları üstələməsi halları vaxtında aşkar edilməli və qarşısı alınmalıdır. İstehsal problemlərini önə çəkərək, hazır məhsulun satışı ilə yalnız məhsul yığımından sonra məşğul olan təsərrüfatçılıq subyektlərinin gəlirlərinin mühüm hissəsi vasitəçilər tərəfindən mənimsənilir. Həmin təsərrüfatlarda itkilərin səviyyəsi də, aqrobiznesə meyilli təsərrüfatçılıq subyektlərindən xeyli çox olur.

Kənd təsərrüfatında idarəetmənin təşkilati strukturunda və onun formalaşması prosesində qarşıya çıxan problemlərin kompleks həlli ali dövlət rəhbəliyinin diqqəti mərkəzindədir. Bu baxımdan 2014-cü il xüsusilə əlamətdar olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" (2014-cü il 16 aprel tarixli 152 nömrəli) Fərmanına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının yerli struktur bölmələri ilə səmərəli əməkdaşlığın qurulması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin rayon və şəhər idarələrinin yaradılmasına başlanılmışdır.

Kənd təsərrüfatında iqtisadi idarəetmə, ilk növbədə istehsalçı və istehlakçı maraqlarının paritetliyinə əsaslanaraq istehsalın dayanıqlı artımını təmin etməlidir. Müəssisənin idarə edilməsinin iqtisadi mexanizmi gəlir əldə etmək üçün xarici əlaqələri təmin etməli, müəssisə daxili istehsal münasibətlərini inkişaf etdirməli, daxili iqtisadi mexanizmi hərəkətə gətirməlidir.

İdarəetmənin iqtisadi üsulları resurslarla manevr imkanı verən ümumi davranış qaydalarına əsaslanır. Həmin qaydalar, idarəediciləri, icraçıların rəyini nəzərə alan alternativ qərarlar hazırlamağa, onlardan kollektivin mənafeyinə daha çox uyğun olanını seçməyə təşviq edir. İdarəetmədə iqtisadi üsulların tətbiq dairəsi nə qədər geniş olursa, daha çox məsələni bilavasitə informasiya mənbəyinə yaxın olan əsas idarəetmə halqalarında həll etmək imkanı yaranır.

İdarəetmənin təşkilati strukturu bütün bölmə və səviyyələrdə maddi məsuliyyətin optimal bölgüsünü və təsərrüfatçılığın mənfəətliliyinin təmin etdiyi halda lazımi səmərə verir. Başqa sözlə, müəssisənin səmərəli fəaliyyəti qiymət siyasəti və qiymətin əmələ gəlməsi mexanizmlərinin, məhsulun keyfiyyəti və rəqabət qabiliyyətinin yüksəldilməsi üsullarının və bu kimi bir sıra digər iqtisadi üsulların (modellərin) tətbiqini nəzərdə tutmalıdır.

Müəssisənin strukturu və məqsədlər ağacı nəzərə alınmaqla yaradılan motivləşdirmə mexanizmi yüksək keyfiyyətli məhsuldar əməyin motivləşdirilməsi mexanizmini, istehsalın elmi-texniki inkişafının motivləşdirilməsi mexanizmini, sahibkarlığın motivləşdirilməsi mexanizmini əhatə edir.

Kənd təsərrüfatının prioritet istiqamətlərinin məqsədli subsidiya-laşdırılması, innovasiya mühitinin yaxşılaşdırılması,əqli mülkiyyət obyektlərinin yaradılması və istifadəsi, investorların, o cümlədən xarici investorların innovasiya proseslərinə cəlb edilməsi, vençur sahibkarlığının stimullaşdırılması üzrə maliyyə axınlarının idarə edilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Kənd təsərrüfatında məsrəflər idarəetmə predmeti kimi aşağıdakı xüsusiyyətlərə malikdir: ümumilikdə məsrəflərin və onların elementlərinin idarə olunmasına yanaşmalardakı (üsul, vasitə və qaydaların seşimində, onların tətbiqi rejimlərində) müxtəliflik; məsrəflərə dinamik baxışın zəruriliyi; məsrəflərin iqtisadi nəticələrə təsirinin mürəkkəb və ziddiyyətli xarakterli olması; məsrəflərin ölçülməsi üzrə mövcud üsulların mütləq dəqiqliyi təmin etməməsi.

Azərbaycanın aqrar-ərzaq təsərrüfatının idarə edilməsində iqtisadi üsul və vasitələrin rolunun artması, müasir dövrün reallığı olmaqla, ərzaq təhlükəsizliyinin xəritələşdirilməsi üçün potensial əlverişli şərait

yaradır. Kənd təsərrüfatında innovasiyalı inkişaf tələblərinə adekvat iqtisadi idarəetmə, yuxarıda şərh olunanları nəzərə alaraq, ilk növbədə: elmi-texniki siyasətin reallaşmasına, o cümlədən istehsalın texniki təminatının yaxşılaşdırılmasına, fond veriminin yüksəldilməsinə, mütərəqqi resursqoruyucu texnologiyaların mənimsənilməsi və onların tətbiq dairəsinin genişləndirilməsinə; sahənin innovasiyalı inkişafı baxımından təsərrüfatın maliyyə durumunu sağlamlaşdırılmasına, onun bazarın müvafiq seqmentindəki mövqeyinin möhkəmləndirilməsinə; rəqabət qabiliyyətli, ixracyönlü istehsalın genişləndirilməsinə, bir sözlə innovasiyalı dayanıqlı inkişafın təmin edilməsinə xidmət etməlidir.

Aqrar sahədə innovasiyalı fəaliyyətin idarə edilməsi qərarlarının hazırlanması prosesində Quba Reqional Aqrar Elm və İnnovasiya Mərkəzində Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun 0,5 ha sahədə yaratdığı buğda sortlarının perspektivlərini müəyyən etmək üçün 2021-2025 ci-illər üzrə proqnozlar hazırlamaq üçün iqtisadi-riyazi model tərtib edilmiş və təhlil aparılmışdır. Aparılmış araşdırmalar "Qobustan" və "Şəki-1" buğda sortlarının potensial məhsuldarlığının digər sortlara nisbətən daha yüksək olduğu və bu sortların gələcəkdə daha geniş sahələrdə becərilməsi məsləhət və tövsiyə olunmuşdur.

**"Sahədə təşkilati-iqtisadi idarəetmə sisteminin səmərəliliyinin yüksəldilməsi və informasiya təminatının təkmilləşdirilməsi" adlı üçüncü fəslində** kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin informasiya təminatının təkmilləşdirilməsinin üsul və vasitələri müəyyənləşdirilmiş, sahənin idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması imkanları qiymətləndirilmiş, kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri əsaslandırılmışdır. İdarəetmənin informasiya təminatı sahəsində təşkilati və iqtisadi fəaliyyət obyektlərinin funksional aspektlərini səciyyələndirməklə, cari və perspektiv istehsal-kommersiya münasibətlərinin təkmilləşdirilməsi üçün informativ təməl rolunu oynamalıdır. Bu baxımdan kənd təsərrüfatının təşkilati-iqtisadi idarə edilməsi sistemi də istisna deyildir. Təşkilati-iqtisadi xarakterli idarəedici qərarların əsaslandırılması, nəinki sahə, həm də sahələrarası informasiya resurlarının tərkibi və strukturunun müxtəlif səviyyələrdə

informasiya ehtiyaclarına uyğunluğundan asılıdır.

Kənd təsərrüfatında və ümumilikdə aqrar sahədə təşkilati-iqtisadi idarəetmənin informasiya bazasında yenilənmənin əsas istiqamətlərinə aşağıdakılar aid edilməlidir: idarəetmənin məqsədini zaman və məkan baxımından əks etdirən göstəricilərin bütün səviyyələrdə əsaslandırılması üçün optimal detallaşdırma səviyyəsinin müəyyənləşdirilməsi; aqrar bazarın bu və ya digər seqmentinin tələblərinin idarəetmənin başlıca meyarlarında əks etdirilməsi imkanlarının yüksəldilməsi; perspektiv parametrlərin müəyyən edilməsinin informasiya bazasının genişləndirilməsi. İdarə olunan obyektin fəaliyyətini əks etdirən informasiya axınlarının optimallaşdırılması üçün qurulan məqsəd funksiyaları və məhdudiyyət şərtləri, çoxsaylı imitasiya eksperimentləri ilə müşayiət olunmadıqda reqlamentləşdirici təsirləri hərtərəfli xarakterizə edə bilmir. Digər tərəfdən, təlimatlar, göstərişlər, tövsiyələr sayəsində formalaşdırılan fəaliyyət mühiti kənd təsərrüfatına xas olan qeyri-müəyyənlik amilinə adekvat reaksiya imkanlarını azalda bilər. Odur ki, reqlamentləşdirici təsirlərin hərtərəfli əsaslandırılmasına imkan verən informasiya bazasının yaradılması kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin informasiya təminatının təkmilləşdirilməsi prioritetlərinə aid edilməlidir.

Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin informasiya təminatının təkmilləşdirilməsinin əsas istiqamətlərinə aşağıdakılar aid edilməlidir: təkrar istehsal prosesinin tələbləri nəzərə alınmaqla reallığa adekvatlıq səviyyəsinin yüksəldilməsi; bilavasitə kənd təsərrüfatı məhsulu istehsalçılarının informasiya ehtiyaclarını əks etdirən informasiya massivləri blokunun formalaşdırılması; informasiya axınlarının əsas xarakteristikalar üzrə optimallaşdırılması; biliklərin mübadiləsi, özü öyrədən sistemlərin tələblərinə uyğunlaşma; funksional təyinatlı komponent və əlaqələrin mütləq üstünlüynün təmin edilməsi; informasiya massivlərində təkrarlanmaları və itkiləri minimumlaşdıran suboptimal aqreqasiya səviyyəsinin müəyyənləşdirilməsi; sahədə kooperasiyanı ləngidən amilləri xarakterizə edən informasiya massivlərinin yaradılması; ixrac potensialının qiymətləndirilməsi və reallaşdırılması üçün tətbiq edilən əsas göstəriciləri əhatə etməklə müvafiq informasiya bazasında olan boş-

luqların aradan qaldırılması; innovasiyalı-intensiv və çoxfunksiyalı kənd təsərrüfatında daha əlverişli investisiya mühitinin formalaşdırılmasına informasiya xidməti səviyyəsinin yüksəldilməsi; optimal investisiya qərarlarının qəbulu üçün, daha mükəmməl informasiya-təhlil sisteminin yaradılması.

Sahənin idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılmasının mühüm aspektlərindən biri ixtisaslaşma və biomüxtəlifliyin bərpası məsələlərinin vahid aspektdə həllidir. Optimal əkin sisteminin tətbiq edilmədiyi hazırki şəraitdə bitkiçilikdə ixtisaslaşmaya ənənəvi yanaşma biomüxtəlifliyə ciddi ziyan vurur. İxtisaslaşma və inteqrasiyanın daha perspektivli istiqaməti kimi yaradılması nəzərdə tutulan aqrar-sənaye klasterləri biomüxtəlifliyin bərpası istiqamətində geniş imkanlara malikdir. Aparıcı sahə ətrafında elmi, istehsal, emal və xidmət fəaliyyətinin inteqrasiyası innovasiyalı idarəetmənin sınaqdan çıxarılması poliqonu kimi diqqətə layiqdir. Kənd təsərrüfatının innovasiyalı inkişafının məqsədlərinə biomüxtəlifliyin bərpası, qlobal iqlim dəyişikliklərinə qarşı mübarizə və ona uyğunlaşma, ekoloji təmiz məhsul istehsalı, ümumilikdə artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçid, ərzaq təhlükəsizliyi fəaliyyətləri xəritələrinin icrası, resurslardan səmərəli istifadə və resursqoruyuculuğun gücləndirilməsi, alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması və istifadəsi aid edilməlidir.

Biomüxtəlifliyin faktiki səviyyəsini nəzərə almaq üçün kənd təsərrüfatının innovasiyalı idarəetmə strukturunda, ilkin yanaşmada növlərin sayı və növlərin nisbi bolluğu göstəricilərindən istifadə edilə bilər. Qlobal iqlim dəyişikliklərin səhralaşma, istixana effekti, daşqınların artması və digər nəticələri, nəinki müasir bitkiçilikdə, habelə heyvandarlıqda demək olar ki, bütün fəaliyyət növlərinin elmtutumunu artırmışdır. Odur ki, həmin sahələrin idarə edilməsi sistemində də, innovasiyalı inkişafa adekvat dəyişikliklər edilməlidir. Artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçidin innovasiyalı idarəetmədə nəzərə alınmasının ilk mərhələlərindən biri, iqtisadi səmərəlilik meyarlarının iqtisadi-ekoloji səmərəlilik meyarları ilə əvəzlənməsi olmalıdır. Sahədə innovasiyalı inkişafın məqsədləri kimi resurslardan səmərəli istifadə və resursqoruyuculuğun gücləndirilməsi, alternativ və bərpa olunan enerji

mənbələrinin yaradılması istiqamətində hazırda daha real və müvəffəqiyyətli addımlar atılır. İnnovasiyalı inkişafın kənd təsərrüfatının idarəetmə strukturunda, qabaqcıl təcrübədən göründüyü kimi bilavasitə nəzərə alınmalı tələblər qismində: kreativ düşüncəli, yüksək ixtisaslı idarəedici kadrların hazırlığı; aqrar təhsilin innovasiyalara açıqlığının təmin edilməsi; texnoloji transferlərin idarə edilməsi mexanizminin kənd təsərrüfatının idarəetmə strukturunun vacib tərkib hissəsinə çevrilməsi; innovasiyalara informasiya dəstəyi rejiminin təkmilləşdirilməsi.

Kənd təsərrüfatının idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması adekvat infrastruktur təminatının formalaşdırılmasını tələb edir. Bu məqsədlə aşağıdakı komponentləri əhatə edən infrastruktur yaradılmalıdır: elmi-tədqiqat və təcrübə konstruktor mərkəzləri, istehsal, emal və satış qurumları arasında dinamik qarşılıqlı əlaqələr sistemi; texniki siyasətin işlənib hazırlanması üzrə çevik, başqa sözlə dəyişən şəraitə adekvat reaksiya verə bilən işçi qruplar; maliyyə təminatını reallaşdıran ixtisaslaşdırılmış bölmələr, vençur strukturları; yeni məhsulun layihələndirilməsi qrupları; yeni texnologiyanın mənimsənilməsi laboratoriyaları; innovasiya fəaliyyətini stimullaşdıran xüsusi fondlar; innovasiya infrastruktur şəbəkəsinin fəaliyyətini kollegial qiymətləndirən şuralar.

İmitasiya modelləşdirilməsi ilə ölkənin Abşeron, Quba-Xaçmaz, Gəncə-Qazax və Lənkəran iqtisadi rayonlarının iri təsərrüfatlarında tərəvəz istehsalı üzrə 2025-ci ilə proqnozlar verilmişdir (cədvəl 3).

Təqdim olunan imitasiya modeli şəhərə yaxın ərazilərdə bitkiçilik istehsalının idarə edilməsi üzrə qərar hazırlanması məqsədi ilə tətbiq edilmişdir.

Cədvəl 3-də hesablanmış variantlar sırasında 4-cü varianta üstünlük verilmişdir. Ona görə ki, bu variantda Quba-Xaçmaz və Lənkəran iqtisadi rayonlarının potensialından yaxşı istifadə olunur. Gəncə-Qazax iqtisadi rayonunda bitkiçiliyin şaxələndirilməsi proqramı çərçivəsində digər sahələrin inkişaf etdiriləcəyi nəzərə alınır.

**Cədvəl 3**
**Abşeron, Quba-Xaçmaz, Gəncə-Qazax və Lənkəran iqtisadi rayonlarının iri təsərrüfatlarında tərəvəz istehsalı üzrə 2025-ci ilə proqnozlar (%-lə)**

| İqtisadi rayonlar | I | II | III | IV |
|---|---|---|---|---|
| Abşeron | 4,0 | 3,5 | 3,5 | 3,0 |
| Quba-Xaçmaz | 29,0 | 30,5 | 30,5 | 30,0 |
| Lənkəran | 25,0 | 27,0 | 27,0 | 28,5 |
| Gəncə-Qazax | 42,0 | 39,0 | 39,0 | 38,5 |
| Cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 |

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur*

Kənd təsərrüfatında idarəetmə strukturunun innovativliyi prioritetləri sahədə innovasiyalı inkişafın məqsədlərinə nail olmaq üçün tələb olunan vasitələr nəzərə alınmaqla əsaslandırılmalı; sahədə idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılma prosesi innovasiyalı fəaliyyətin məkan və zaman parametrlərini əhatə etməli; idarəetmə strukturunun innovasiyalı xarakterinin dəstəklənməsi sistemi və innovasiya menecmenti unifikasiya olunmuş üsul və qaydalara əsaslanmalı; idarəetmə strukturunun fəaliyyəti elmi koordinasiyalı idarəetmə prinsiplərinə uyğunlaşdırılmalı; idarəetmə strukturunun kreativ düşüncəli, yüksək ixtisaslı idarəedici kadrlarla təmin edilməli; aqrar təhsilin innovasiyalara açıqlıq dərəcəsi yüksəldilməli; texnoloji innovasiyaların transferlərin idarə edilməsi mexanizmi təkmilləşdirilməlidir.

İdarəetmə sisteminin özünün səmərəliliyini xüsusi göstəricilərlə qiymətləndirmənin metodikası mürəkkəb olmaqla yanaşı, heç də bütün hallarda nəticələrin keyfiyyət dəyişikliklərini nəzərə almağa imkan vermir. Bu isə, xüsusilə aqrar sahədə idarəetmənin səmərəliliyinin səciyyələndirilməsi baxımından arzu olunan nəticəni verməyə bilər. İdarəetmənin səmərəliliyinə təsir edən amillərin idarə edən və idarə olunan altsistemlər üzrə fərqləndirilməsi, habelə idarəetmə məqsədinin kəmiyyətcə və keyfiyyətcə səciyyələndirilməsi, müvafiq göstəricilər sisteminin formalaşdırılmasında az əhəmiyyət kəsb etmir. Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin

məqsədinin və səmərəlilik meyarlarının birmənalı və kifayət qədər dəqiq ifadə olunması, sahədə idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi baxımından vacib şərtdir.

İnvestisiya proseslərinin idarə edilməsinin səmərəliliyi, kumulyativ göstərici olsa da, konkret layihəyə münasibətdə birmənalı qiymətləndirilməlidir. Odur ki, haqqında danışılan səmərəliliyi şərtləndirən komponentləri vaciblik dərəcəsinə görə ranqlaşdırmaq lazım gəlir. Bu baxımdan, müəssisələrin daxili yığım payıının dinamikası, əmanətlərin investisiyaya transformasiyası dərəcəsi, təkrar investisiyaya yönəldilən mənfəətin xüsusi çəkisi kimi göstəricilər diqqət mərkəzində olmalıdır.

Kənd təsərrüfatında, habelə aqrar-ərzaq təsərrüfatında təşkilati-iqtisadi idarəetmə qərarlarının nəticələrinin qiymətləndirilməsində texnoloji amilin rolu, heç də həmişə lazımi səviyyədə nəzərə alınmır. Xeyli dərəcədə bu onunla əlaqədardır ki, postsovet məkanında antiböhran idarəetməsi təcrübəsində texnoloji innovasiyaların əhəmiyyəti kifayət qədər qiymətləndirilmir. Halbuki, qabaqcıl xarici təcrübədə kənd təsərrüfatında və ərzaq təsərrüfatında böhran simptomlarından çıxış edərək diaqnostik tədbirlərin həyata keçirilməsində, məhz texniki-texnoloji innovasiyalar önə çəkilir. Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsinin aşağıdakı istiqamətlərinə üstünlük verilməsi məqsədəuyğundur: funksional təyinatdan irəli gələn meyarlar üzrə təşkilati strukturlaşdırma səviyyəsinin optimallaşdırılması; kənd təsərrüfatında və ümumilikdə aqrar-sənaye kompleksində loqistik sistemlərin idarə olunması mexanizmində: transaksion xərclərin minimumlaşdırılması və istənilən bürokratik maneənin aradan qaldırılması üçün stimullaşdırıcı imkanların reallaşdırılmasının əlverişli mühiti formalaşdırılmalıdır.

Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmənin mühüm tərkib hissəsi kimi loqistik sistemlərin idarə olunması mexanizminin səmərəliliyinin yüksəldilməsi məqsədilə: - istehsal-satış siyasətinin motivləri formallaşdırılmalı;

- topdansatış strategiyasının əsas parametrləri əsaslandırılmalı;

- əmtəə üzrə ixtisaslaşmanın məsrəflərin strukturuna təsirinin tənzimlənməsi istiqamətləri müəyyən edilməli;

- ümumilikdə loqistik fəaliyyətin tövsiyə olunan təşkili rejimləri əsaslandırılmalı;

- xammal idxalının idarə edilməsi sistemində keyfiyyətə nəzarətin adekvat təşkilati təminatının yaradılmasının başa çatdırılması, kənd təsərrüfatı mənşəli xammalın idxalı rejimində yerli istehlakçı və istehsalçıların mənafeyinin önə çəkilməsi meyarlarına əsaslanan təkmilləşdirmələr aparılmalı;

-ÜTT-yə (Ümumdünya Ticarət Təşkilatı) üzvlüyün tələblərinə adekvat sistemin qurulması məsələlərinin həlli üçün: idxal rüsumları müəyyənləşdirilməli və sahəyə proteksionist münasibətdə kompromis variant tapılmalı, daxili yardım və ixrac subsidiyalarının tətbiqinin əlverişli baza ili seçilməlidir;

- məhsul istehsalı və yeridilişində keyfiyyət, qiymət və itkilərin minimumlaşdırılması meyarlarına əsaslanan təkmilləşdirmələr həyata keçirilməlidir.

Dissertasiya işinin əsas müddəaları müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. **S.F.Kərimova.** Kənd təsərrüfatının idarə edilməsinin nəzəri məsələləri. Az.ETKTİ və Tİ, Elmi əsərləri. Bakı, 2012, №2, səh 149-153

2. **S.F.Kərimova.** Aqrar sahədə sahibkarlıq subyektlərinin strateji idarə edilməsi. Az.ETKTİ və Tİ 50 illik yubileyinə həsr olunmuş “Aqrar iqtisadiyyatın aktual problemləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2012.səh. 308-310

3. **S.F.Kərimova.** Kənd təsərrüfatında təşkilati-iqtisadi idarəetmə üzrə qabaqcıl xarici təcrübə haqqında. Az.ETKTİ və Tİ, Elmi əsərləri. Bakı, 2014, №2 səh. 46-51

4. **S.F.Kərimova.** Təşkilati - iqtisadi idarəetmə sistemlərinin mahiyyəti və aqrar sahədə onun təşəkkülü. “Kooperasiya” elmi-praktiki jurnal. №3(34), 2014 səh. 41-46

5. **S.F.Kərimova.** Kənd təsərrüfatında təşkilati - iqtisadi

idarəetmənin informasiya təminatı və onun təkmilləşdirilməsi prioritetləri. AMEA İqtisadiyyat İnistitutu Elmi əsərləri 2014, № 4, səh 247-252

6. **С.Ф.Керимова.** Формирование управленческой структуры сельского хозяйства адекватной требованиям инновационново развития. Экономика и предпринимательство №5 (ч.1), 2015 г, стр. 827-830

7. **S.F.Kərimova.** Kənd təsərrüfatında idarəetmənin təşkilati strukturunun formalaşması prosesinin xarakteristikası. Azərbaycan Aqrar Elmi. Elmi nəzəri jurnalı, 2015 №3, səh 107-110

8. **С.Ф.Керимова.** Вопросы повышения эффективности организационно-экономического управления в сельском хозяйстве. Международные научные исследования №3. 2015, стр. 82-84

9. **S.F.Kərimova.** Kənd təsərrüfatında təşkilati - iqtisadi idarəetmə: strukturun innovasiya tələblərinə uyğunluğu və səmərəliliyin yüksəldilməsi. “Kooperasiya” elmi-praktiki jurnal. № 4(51)- 2018 səh. (113-119).

10. **S.F.Kərimova.** Aqrar sahədə idarəetmə strukturunun innovasiyalı inkişaf tələblərinə uyğunlaşdırılması. “Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar” mövzusunda Beynəlxalq konfransın materialları. Bakı, 2020, səh.443-44.

11. **S.F.Kərimova.** Aqrar sahədə təşkilati-iqtisadi idarəetmənin səmərəliliyinin yüksəldilməsi məsələləri. Uluslararası Katılımlı Türk Romatoloji Kongresi 2020, (Beynəlxalq konfrans), Antalya, Türkiyə, 25-29 mart, səh.1-6.



Dissertasiyanın müdafiəsi “30” iyun 2021-ci il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat “31” may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.05.2021.
Kağızın formatı: 60x84 $_{1/16}$. Sifariş 05/06.
Həcmi 1 ç.v. (41594 işarə). Tiraj 100.

*“AA – Poliqraf” istehsalat-kommersiya birliyində*
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*